MALİYYƏNİN İDARƏ EDİLMƏSİ

V.M.QULİYEV, iqtisad elmləri namizədi
AzETKTİ və Tİ

Maliyyənin dünya ölkələri nəzəriyyəsində klassik hesab edilən tərifi təxminən belə səslənir:

Maliyyə-milli gəlirin bölüşdürülməsi prosesində pul vəsaitləri fondlarının yaranması, bölüşdürülməsi və istifadə edilməsi münasibətilə meydana gələn iqtisadi münasibətlərdir.

Əlahiddə götürülən müəssisə miqyaslarına münasib olaraq milli gəlir əlavə dəyərdir və deməli, nəzəriyyəni rəhbər tutaraq belə nəticəyə gəlmək olardı ki, müəssisədə maliyyənin funksiyaları alınmış mənfəətin bölüşdürülməsilə məhdudlaşır. Lakin təcrübədə ümumiyyətlə maliyyə və xüsusilə maliyyə fəaliyyəti anlayışı əhəmiyyətli dərəcədə genişdir və bütün təkrar istehsal prosesinin pul təminatı sistemini özündə cəmləşdirir, yəni müəssisənin maliyyəsi anlayışına mənfəətdə, realizasiyadan satışdan mədaxil, də, tədavül xərcləri də və müəssisənin öz vəsaitindən istifadə edilməsi də daxil edilir.

Müəssisənin maliyyə ehtiyatdarı anlayışı bir qədər dardır və yalnız geniş təkrar istehsalın təmin edilməsinə istiqamətləndirilə bilən özünün və cəlb olunmuş vəsaitlərin formalaşdırılması mənbələrini əhatə edir. Belə mənbələrə aiddir:

- bütün təsərrüfat və maliyyə fəaliyyəti növlərindən (satışdan kənar əməliyyatlar daxil edilməklə) alınan mənfəət;
- amortizasiya ayırmaları;
- müəssisənin buraxdığı qiymətli kağızların yerləşdirilməsindən alınan mənfəət;
- bank kreditləri;
- təsərrüfat münasibətlərinin digər iştirakçılarının verdiyi borclar.

Müəssisələr təsərrüfat fəaliyyəti prosesində olduqca mürəkkəb pul xərcləri kompleksini həyata keçirirlər. İqtisadi məzmununa və məqsədli təyinatına əsaslanaraq onları aşağıdakı müstəqil qruplara bölürlər:

- əsas istehsal vasitələrinin təkrar istehsalı xərcləri;
- məhsulun istehsalı və satışı (realizasiyası) xərcləri;
- sosial-mədəni tədbirlər və yaşayış tikintisi xərcləri.

Maliyyənin idarə edilməsinin mahiyyəti pul vəsaitlərindən ən səmərəli istifadə edilməsi məqsədilə maliyyə-pul axınlarının təşkilindən və onların idarə edilməsindən ibarətdir.

Maliyyə menecmentini planlaşdıran və həyata keçirən zaman aşağıdakı səciyyəvi (spesifik) terminlərdən istifadə olunur:

Müəssisənin öz və borc kapitalının investisiya qoyuluşları (xərcləri)–öz və borc kapitalına olan tələbatın məbləği (son hesabat tarixinə, yəni sıfırlı baza ilinin sonuna müəssisənin balans üzrə öz və borc kapitalının miqdarı üstəgəl planlaşdırılan dövrdə müəssisənin təsərrüfat fəaliyyəti prosesində öz və borc kapitalının mümkün olan artması).

Dövriyyə kapitalı (işçi kapital)-cari aktivləri məbləği və cari öhdəliklərin məbləği arsında fərqi.

Pul vəsaitləri-müəssisənin pul vəsaitləri şəklində aktivlərinin məbləğini göstərən müvafiq balans maddəsi.

Cari təsərrüfat (investisiya, maliyyə) fəaliyyətindən alınan pul axını –əməliyyat (investisiya, maliyyə) fəaliyyəti prosesində pul vəsaitlərinin daxil olması və ayrılmalarının tutuşdurulması nəticəsində alınan pul vəsaitlərinin artdığı (çatmaması) məbləği.

Pul daxil olmaları (mədaxilləri) axınının hesablanmasının sadələşdirilmiş variantında iqtisadi fayda müəssisənin fəaliyyətinin maliyyə nəticələri barədə hesabatında əks etdirilir və vergi məbləği qədər azaldılmış mənfəətdən üstəgəl amartizasiya ayırmalarından ibarətdir; bundan əlavə bəzi hesabların (debitor borcları, kreditor borcları, ehtiyatlar, əsas vəsaitlər) dəyişilməsinə təshih edilmələr tələb olunur.

Planlaşdırılan dövrün xaricində pul axınlarının qalıq dəyəri - planlaşdırılan dövr (n - il) qurtardıqda alına bilən bütün pul axınlarının dəyəri.

Qordon modeli adlanan modellə müəyyən edilir:

1) zənn edilir ki, pul axının artımı templəri (sürətləri) plan dövrü xaricində sabitləşəcəkdir (q);
2) proqnoz dövründən sonrakı birinci ildə ((n+1)-ci ildə) pul axını (CFn+1)-proqnoz ilinin son ilinin pul axının (CFn) artım tempinə (1+q) vurma hasili kimi

hesablanır;

3) planlaşdırılan dövrün xaricində pul axınlarının qalıq dəyəri qalıq dövründə pul axınlarının (CFn+1) diskont tarifi (r) və pul axınlarının artım tempi (q) arasında fərqə bölünməsindən alınan qismət kimi hesablanır.

$$\text{Qalıq dəyəri} = \frac{CF_n(1+q)}{r-q}$$

Layihənin planlaşdırılan həyata keçirilməsi dövrü qurtaranda müəssisənin satılması barədə fərziyyə əsasında qalıq dəyəri ləğvedilmə dəyərinə bərabər qəbul edilir.

Qalıq (ləğvedilmə) dəyəri ilin axırı üçün hesablanmış diskont edilmə əmsalı ilə (cari dəyər əmsalı ilə) diskont edilməlidir, o, ilin ortası üçün diskont edilmə əmsalı ilə diskont edilən planlaşdırılan dövrün pul axınlarından fərqlənir.

Planlaşdırılan dövrün xaricində pul axınlarının qalıq dəyərinin cari (diskont edilmiş) dəyəri – proqnoz dövrünün xaricində bütün pul axınlarının sıfır vaxt anına gətirilmiş dəyəri.

Gələcək dəyər-pul vəsaitlərinin sari dəyərə münasibətdə mürəkkəb faiz metodu tətbiqi vasitəsilə hesablanmış miqdarı.

Cari gətirilmiş dəyər gələcək dəyərin diskont edilmə (cari dəyər) əmsalı adlanan $1/(1+r^n)$ əmsala vurma hasilinə bərabərdir; burada n-illərin sayıdır, q-seçilmiş diskont tarifidir.

Diskont edilmə əmsalı (cari dəyər əmsalı həm ilin sonu üçün):

$$1/(1+r^n),$$

burada n - illərin sayı; r - seçilmiş diskont tarifidir.

Həm də ilin ortası üçün

$$1/(1+r^{(n+0,5)}),$$

hesablana bilər, burada n - illərin sayı; r - seçilmiş diskont tarifidir.

Planlaşdırılan dövrün pul vəsaitləri bütün il ərzində daxil olur, ona görə də planlaşdırılan dövrün pul vəsaitlərinin diskont edilməsi üçün ilin sonu üçün cari dəyər əmsalı tətbiq etmək münasib deyil, ilin ortası üçün diskont edilmə əmsalından istifadə edilir.

Diskont edilmə-pulların gələcək dəyərinin onların cari gətirilmiş dəyərinə gətirilməsi (təshih edilməsi) prosesidir. Diskont edilmənin əksinə olan proses, yəni gələcək dəyərin müəyyən edilməsi ilkin investisiya edilmiş dəyər üzərinə mürəkkəb faizlərin hesablanmasıdır.

Diskont tarifi (dərəcəsi)-adətən investorların oxşar (analoji) məzmunlu və risk dərəcəsi olan investisiyalardan aldıqları mənfəət normasıdır. Bu investorun tələb etdiyi investisiyaların gəlirliliyi səviyyəsidir.

Xalis cari gətirilmiş dəyər (NPV)-investisiya xərcləri və ekvivalent şəraitə gətirilmiş gələcək daxil olmalar (mədaxillər) arasında fərqdir (saldodur), yəni o, pul vəsaitlərinin mədaxillərinin və ayırmalarının gətirilmiş dəyərləri arasında fərqdir. NPV investisiyaların arzu edilən fayda səviyyəsinə çatıb–çatmadığını göstərir:

- NPV-nin müsbət qiyməti göstərir ki, pul mədaxilləri qoyulmuş vəsaitlərin məbləğindən artıqdır, tələb olunan gəlirlilik səviyyəsindən yüksək mənfəət alınmasını təmin edir;
- NRV-nin mənfi qiyməti göstərir ki, layihə gözlənilən gəlirlilik səviyyəsi alınmasını təmin etmir.

Daxili mənfəət norması (gəlirliliyin daxili son səviyyəsi -İRR)-xüsusi diskont dərəcəsidir (tarifidir); bu halda pul vəsaitlərinin mədaxillərinin və ayırmalarına məbləğləri sıfır xalis cari gətirilmiş dəyəri verir, yəni pul mədaxillərinin gətirilmiş dəyəri pul vəsaitləri ayırmalarının gətirilmiş dəyərinə bərabərdir.

Diskont edilmiş pul axınları texnikası – pulların dəyərinin vaxt ərzində dəyişilməsi konsersiyasından, xalis cari gətirilmiş dəyər metodundan və gəlirliliyin daxili son səviyyəsi metodunda istifadə etməklə, investisiya təkliflərinin qiymətləndirilməsi və dərəcələrə ayrılması metodudur.

Layihənin dinamiki (diskont) ödənilməsi müddəti-diskont edilməni nəzərə almaqla ilkin xərclərin ödənilməsi üçün lazım olan illərin sayıdır, yəni gəlirlərin diskont edilmiş pul axınları xərclərin diskont edilmiş pul axınlarına bərabər olacağı vaxt anı müəyyən edilir.

Maliyyə menecmentinin (maliyyənin idarə edilməsinin) məqsədlərinin təmin edilməsi üçün hər müəssisədə maliyyə direktorluğu yaxud maliyyə şöbəsi yaradılır. Yaxın vaxtlara qədər müəssisədə maliyyə işi xalis əməli (operativ) vəzifələrdən hesablama və ödəmə sənədlərinin tətbiq edilməsinə, mal göndərənlərlə, alıcılarla, büdcə ilə, kredit idarələrilə, müəssisənin şəxsi heyəti (potensialı) ilə hesablaşmaların təşkilindən ibarət idi. Bundan əlavə maliyyə şöbələri müəssi-

sənin cari və perspektiv inkişafı planlarının işlənib hazırlanmasında iştirak edirdilər.

İdarəetmənin bazar metodlarına keçəndən sonra maliyyənin və maliyyə işinin əhəmiyyəti dəfələrlə artmışdır. Hazırda müəssisənin maliyyə sturukturları aşağıdakı funksiyaları yerinə yetirirlər:

- müəssisənin təsərrüfat fəaliyyətinin maliyyələşdirilməsinin təmin edilməsi;
- təsərrüfat subyektinin inkişafının maliyyə proqnozlarının işlənib hazırlanması;
- investisiya siyasətinin işlənib hazırlanması;
- kredit siyasətinin müəyyən edilməsi;
- müəssiənin bütün bölmələri üçün pul vəsaitləri xərcləri smetasının işlənib hazırlanması və müəyyən edilməsi;
- maliyyə planlaşdırılması, biznes-planların işlənib hazırllanmasında iştirak edilməsi;
- mal göndərənlərlə, alıcılarla, podratçılarla, sifarişçilərlə, kreditorlarla, debitorlarla, bankla, büdcə ilə hesablaşmaların həyata keçirilməsi;
- maliyyə risklərindən sığortalanmanın təmin edilməsi;
- lizinq əməliyyatları və əmlakın vəkalətlə idarə edilməsi üzrə əməliyyatlar aparılması;
- müəssisənin maliyyə-təsərrüfat və xarici iqtisadi fəaliyyətinin təhlili;
- maliyyə uçotunun aparılması, mühasibat balansının və digər maliyyə sənədlərinin tərtib edilməsi.

Əmin olmaq çətin deyil ki, müəssisənin maliyyə fəaliyyətinə bilavasitə təsir edən əsas funksiya (vəzifə) maliyyə planlaşdırılmasıdır. Müəssisənin inkişaf perspektivləri, maliyyə axınlarının ölçüsü və istiqamətlərinin nə qədər dəqiq müəyyən edilməsindən müəssisənin bazar rəqabəti şəraitində yaşaya biləcəyindən bilməyəcəyindən asılıdır.

Odur ki, maliyyə plalaşdırılmasının ümumi prinsiplərini və qaydasını şərh etməyi məqsədəuyğun hesab edirik.

Əməli cəhətdən (əslində) istehsal edilən məhsulların miqdarının (həcminin) genişlənməsinə (artırılmasına) və ya avadanlığın daha müasirilə əvəz edilməsinə, yaxud satış bazarlarının və madddi-istehsal ehtiyatları ilə təminat mənbələrinin dəyişilməsinə yönəldilmiş istənilən layihəni investisiya layihəsi adlandırmaq olar. Belə ləyihələrin səciyyəvi xassəsi ondan ibarətdir ki, bu gün elə məqsədlə pul vəsaitləri qoyulur ki, gələcəkdə onlar ödənilsin və müəyyən (hər hansı) əlavə məbləğ alınsın, yəni investisiyanın qaytarılması-investisiya edilmiş məbləğin ödənilməsi və investisiyaya gəlir-kapitalın fəaliyyət göstərdiyi dövr ərzində qoyulandan artıq məbləğdə gəlirlər axını nəzərdə tutulur. Əgər uzun müddətli aktivlər əldə edilirsə, onda investisiyaların qaytarılması və investisiyaya gəlir-əldə olunan aktivlərin istismarı nəticəsində alınmış faktiki pul mədaxilləridir və əgər pul mədaxilləri axını pul vəsaitlərinin ilkin qoyuluşundan artıq olarsa bu onu sübut edir ki, kapital qoyuluşlarına yönəldilmiş vəsaitlər ödəNilmişdir (investisiyaların qaytarılması) və müəyyən (bir qədər) mənfəət alınmışdır (investisiyaya gəlir). Beləliklə, investisiya qoyulması gələcəkdə gözlənilən pul mədaxilləri axının satın alınmasıdır və invetisiya layihəsinin səmərəliliyinin belə suala cavab vermək imkanı yaradır: pul mədaxilləri axını kifayət qədər böyük olacaqdırmı ki, həmin investisiyalar özünü doğrultmuş olsun. Qeyd etmək lazımdır ki, təhlil məqsədləri üçün mühasibat sənədlərində əks olunan mühasibat uçotu qaydalarına uyğun olaraq xərclərin yenidən bölüşdürülməsi və pul xaraktrinə malik olamayan adi əməliyyatlar deyil, pul axınında həqiqi dəyişilmələr, yəni pul mədaxilləri və pul ayrılmalarının nisbətinin dəyişilmələri qəbul olunur.

Nəzərə almaq lazımdır ki, müəyyən məbləğdə vəsait hazırda investisiya üçün bu-şərtlə nəzərdə tutulur ki, onun nəticəsi gələcək illərdə pul mədaxilləri axını olacaqdır. Pul vəsaitləri miqdarının iki heç də eyni olmayan tipi meydana çıxır. Birinci, layihənin həyata keçirilməsinin başlanğıcında tam həcmdə təqdim edilən investisiyalara qoyulan vəsaitlər vardır. Həmin vəsaitlər qoyulduğu an təhlil məqsədlərilə sıfır vaxt anı adlanır. İkinci, həmin investisiyaların nəticəsi kimi gələcəkdə bir neçə il ərzində gözlənilən pul mədaxilləri axını vardır. Bu iki ölçü (miqdar) növü bilavasitə müqayisə edilə bilməz, çünki onlar müxtəlif vaxt anında əmələ gəlir; düzgün müqayisə üçün həmin iki məbləği sıfır vaxt anı adlanan eyni vaxt anına hesablanmış ekvivalent ölçülərə (miqdarlara) gətirmək lazımdır. Əgər investisiya bir dəfə, layihənin həyata keçirilməsinin başlanğıcında qoyulursa, nəzərdə tutulan ilkin (başlanğıc) investisiyaların miqdarı təshih edilmir, çünki o, sıfır vaxtı anının dəyərində yaxud cari dəyərdə ifadə edilir; layihənin həyata

keçirilməsi dövrü ərzində investisiya edilmiş vəsaitlərin isə dəyəri sıfır vaxt anına gətirilməlidir. Pul mədaxilləri axını onların cari dəyərinə gətirilir ki, qoyulan vəsaitlərin miqdarı ilə müqayisə edilsin.

Bunun üçün hər ilin pul mədaxillərinin məbləğləri müvafiq gəlirlilik səviyyəsində (diskont edilmə tarifində) diskont edilmə əmsalına vurulur.

Növbəti mərhələ-NPV və İRR müəyyən edilməsidir;Əgər NPV mənfi deyilsə, İRR gəlirliliyin gözlənilən səviyyəsinə bərabərdirsə, yaxud ondan yüksəkdirsə, təklif edilən variant qəbul olunan hesab edilir.

Avans verilmiş kapitaldan istifadə edilməsinin seçilmiş variantının qəbul oluna bilməsi müəyyən ediləndən sonra maliyyə planı tərtib edilir. Planın tərtib edilməsinə aşağıdakı mərhələlər daxildir:

1. İllər üzrə satışın proqnoz həcmləri və məhsul vahidinin proqnoz qiymətləri əsasında məhsulun realizasiyasından (satışından) alınan mədaxil müəyyən edilir.

2. Məhsul istehsalının gözlənilən hər illik artımı, həmçinin müəssisənin imkanları, yəni istehsal gücləri nəzərdən keçirilir (müzakirə edilir). Məhsul istehsalının artımının qiymətləndirilməsi sahənin inkişafı perspektivlərinin və müəssisənin inkişafının retrospektiv meyllərinin təhlilinə əsaslanmalıdır.

3. Müəssisənin məhsulunun qiymətinin hər illik artımı qiymətləndirilir, o, makroiqtisadi və sahə tədqiqatlarına, habelə keçən illərdə qiymətlərin artımı barədə məlumatlara (proqnoz hesablamalar üçün «Dövlət Statistika Komitəsinin» məlumatlarından istifadə edilir) əsaslanır.

4. Maliyyə sağlamlaşdırılması layihəsi üçün hesablanmış əlavə investisiyalara olan tələbat və həmin tələbatın maliyyələşdirilməsi (ödənilməsi) mənbələri tutuşdurulandan sonra dövlət maliyyə dəstəyinin ölçüsü müəyyən edilir. Ondan əlavə, maliyyələşdirmə mənbələri kimi aşağıdakılar müzakirə edilir (nəzərdən keçirilir):

- səhmdar kapital əgər layihənin həyata keçirilməsi dövrü ərzində (n-il) səhmdar kapitalın artması nəzərdə tutulursa;
- cəlb olunimuş kapital-əgər uzun müddətli kreditlərdən və istiqrazlardan, qısamüddətli kreditlərdən və istiqrazlardan (dövlət maliyyə dəstəyinin (yardımının) vasaitləri istisna olmaqla) istifadə edilməsi nəzərdə tutulursa;
- digər maliyyə mənbələri; məsələn, əmək haqqı, əmlak və şəxsi sığorta, büdcə ilə hesablaşmalar və s. üzrə borclar kimi cari (qısamüddətli) passivlər.

5. İstehsal proqramı və fəaliyyətin maliyyə nəticələri proqnozu əsasında pul axınlarının diskont edilməsi modeli tərtib edilir; bu zaman investisiyaların ümumi nəticəsi həmin layihənin hər il həyata keçirilməsinin diskont edilmiş pul axınlarının və planlaşdırılan dövr xaricində (n-il) qalıq dəyərinin cari (diskont edilmiş) dəyərinin cəmi kimi hesablanır.

6. Qoyulmuş vəsaitlərin və həmin qoyulmadan proqnozlaşdırılan nəticələrin ölçüləri tutuşdurulur. Tutuşdurma aşağıdakılar daxil olan xüsusi metodlar və vəsaitlərlə həyata keçirilir: diskont edilmə və mürəkkəb faizlərin hesablanması; layihənin xalis gətirilmiş dəyəri və daxili mənfəət norması (daxili son gəlilik səviyyəsi) göstəricilərinin, layihənin dinamik (diskont) özünü ödəməsi müddətinin hesablanması. Pul axınları modelinin qurulması diskont edilmiş pul axınları texnikasının tətbiqinə əsaslanır.

7. Xalis pul axını hesablanır: xalis mənfəətin məbləği hesablanmış yeyilmə məbləği qədərində təshih edilir.

Bu zaman hesablanan yeyilmənin qiymətləndirilməsi aşağıdakılara əsaslanır: a)aktivlərin təhlilinə; b) son hesabat ili üzrə aktivlərin ölçüsü barədə məlumatlara (inflyasiyanı daxil etməklə); c) əsas vəsaitlərin modelə uyğun olaraq xalis artımının ölçüsünə (məsələn, əgər modelə uyğyn olaraq kapital qoyuluşu yeyilmədən yüksək olmuşsa, o, müvafiq surətdə artmalıdır).

Üstəgəl borcun artımı yaxud çıx onun azalması (ödənilməsi);

Çıx debitor borcunun artımı yaxud üstəgəl onun azalması (ödənməsi);

Çıx kreditlər üzrə ödənilən faizlərin realizə edilmiş (satılmış) məhsulun maya dəyərində nəzərə alınmamış ölçüsü (məbləği). Bu zaman ödənilən faizlərin məbləği ödənilməmiş borcun məbləğinə və borc vəsaitlərinin dəyərinə (faiz dərəcəsinə) əsalanır;

Üstəgəl əsas vəsaitlərin satılmasından alınan vəsaitlərin məbləği;

Çıx nəzərdə tutulan kapital qoyuluşları, onlar mövcud istehsal güclərinin işçi vəziyyətdə saxlanılması yaxud proqnozda nəzərə alınan artım tempinə nail olunması üçün əlavə istehsal güclərinin istismara verilməsi üçün tələb olunur.

Əgər istehsalın artım tempi artıq sabitləşmişdirsə və yeni güclərin istismara verilməsi tələb olunmursa, kapital qoyuluşları yalnız cari aktivlərin onlar yeyildikcə əvəz edilməsinə yönəldilir-müəssisənin genişlənməsi məqsədilə avadanlıq, binalar və qurğular əldə edilməsinə xərclər çəkilmir. Dəqiq hesablama mümkün olmayanda kapital qoyuluşları yeyilməyə bərabər qəbul edilə bilər, çünki, əgər kifayət qədər uzun vaxt dövrü (beş ildən artıq) yeyilmənin məbləği cari aktivlərin əvəz edilməsi üçün tələb olunan ehtiyatlara bərabər olacaqdır.

Dövriyyə kapitalının artımı hər planlaşdırılan il üçün tələb olunan dövriyyə kapitalı məbləğinə əsaslanaraq hesablanır.

Tələb edilən dövriyyə kapitalı faizlə realizasiyadan (satışdan) mədaxilin dövriyyə kapitalına (mal-material ehtiyatlarına, debitor borclarına və s.) investisiyaya yönəldilən hissəsinin məbləğinə əsaslanaraq hesablanır. O, müəsssisənin əvvəlki illərdə dövriyyə kapitalına tələbatının təhlilinə həmçinin oxşar (analoji) müəssisələrdə dövriyyə kapitalının tipik miqdarınının, təhlilinə əsaslanır.

Müəssisə inkişaf etdikcə onun pul axının bir hissəsi mal-material alınmasının debitor borclarının artmasının və s. maliyyələşdirilməsinə yönəldilməlidir. Həmin miqdar şirkətin əlavə dövriyyə vəsaiti tələbatı adlanır və mədaxildən müəyyən faiz nisbətinə əsaslanaraq hesablanır.

Tələb olunan dövriyyə kapitalı müəssisənin dövrün əvvəlində sərəncamında qalmalı olan dövriyyə vasitələridir. Onun məbləği realizasiyadan mədaxilin planlaşdırılan il üçün tələb olunan dövriyyə vəsaitini (faizlə) vurma hasili kimi hesablanır.

Cari dövriyyə kapitalını qiymətləndirmə tarixinə son əlçatan balans hesabatında tapmaq olar. Cari dövriyyə kapitalının miqdarı (məbləği) cari aktivlər və cari öhdəliklər arasında fərq kimi hesablanır.

Dövriyyə kapitalının artığının (defisitinin) miqdarını tələb olunan dövriyyə kapitalını və mövcud olan dövriyyə vəsaitini tutuşduraraq hesablamaq olar. Dövriyyə kapitalının defisit olanda onu maliyyə tələbatı miqdarına əlavə etmək lazımdır, çünki həmin miqdar müəssisəyə gələcəkdə onun fasiləsiz faliyyət göstərməsinin təmin edilməsi məqsədilə qoyulmalı olan pul vəsaitidir.

8. Dövrün sonuna yığılmış pul mövcudluğu müəyyən edilir (dövrün əvvəlinə pul vəsaitləri qalığını və dövr ərzində formalaşmış xalis pul axınını cəmi kimi).

9. Seçilmiş diskont dərəcəsi (tarifi) əsasında cari (diskont edilmiş) dəyər əmsalı müəyyən edilir.

10. Bütün planlaşdırılan dövr ərzində pul axınlarının cari dəyərlərirnin toplanması yolu ilə planlaşdırılan dövrün pul axınlarının cari dəyərlərinin məbləği hesablanır.

11. Aşağıdakı iki üsuldan birilə qalıq dəyəri hesablanır:

- planlaşdırılan dövrdən xaricdə istehsal fəaliyyətini davam etdirən müəssisə üçün planlaşdırılan dövrün xaricində bütün pul axınlarının dəyəri kimi ;
- ləğv edilməli olan müəssisələr üçünləğvetmə dəyəri kimi.

12. Planlaşdırılan dövrün xaricində (n il) qalıq dəyərinin cari (diskont edilmiş) dəyəri-planlaşdırılan dövrün xaricində qalıq dəyərinin cari dəyər əmsalına vurulması yolu ilə müəyyən edilir.

13. Layihənin xalis cari (diskont edilmiş) dəyəri (NPV)- planlaşdırılan dövrün pul axınlarının cari dəyərləri və planlaşdırılan dövrün xaricində qalıq (ləğvetmə) dəyərinin cari (diskont edilmiş) dəyərinin cəmi kimi müəyyən edilir. Xalis cari (diskont edilmiş) dəyərin qiyməti mənfi olmayan halda dövlət maliyyə dəstəyi alınması üçün üsullar axtarıb tapılması üzrə qərar qəbul edilə bilər.

14. Daxili mənfəət norması (İRR) əmsalı müəyyən edilir, o, habelə həmin layihəyə vəsait (o cümlədən dövlət maliyyə dəstəyi vəsaiti) qoyulmasının məqsədə uyğunluğunu səciyyələndirir. Əgər İRR gəlirliliyin tələb olunan səviyyəsindən (diskont dərəcəsindən) yüksəkdirsə yaxud ona bərabərdirsə, layihə müzakirə üçün qəbul edilə bilər. Daxili mənfəət norması əmsalının hesablanması müxtəlif diskont dərəcələrilə seçmə metodu ilə, xalis gətirilmiş dəyərin miqdarını sıfıra yaxınlaşdıraraq yaxud «cash flov» modelindən istifadə etməklə maliyyə kalkulyatorunda həyata keçirilir.

15. Layihənin özünü ödəməsinin diskont (dinamik) dövrü elə vaxt dövrüdür ki, o, qurtaranda cari (diskont edilmiş) pul axınlarının dəyərinin artan yekunla təqdim olunan məbləği mənfi olmur, yəni gəlirlərin diskont edilmiş pul axınları xərclərin diskont edilmiş pul axınlarına bərabər olur.

16. Konkret kredit müqavilələri şərtlə-

rinə uyğun olaraq müəyyən edilmiş ödəmə müddətləri nəzərə alınmaqla kreditor borclarının ödənilməsi qrafiki tərtib edilir.

17. Zərərsizlik nöqtəsi (rentabellik həddi)-realizasiyadan elə mədaxildir ki, bu halda müəssisənin zərərləri yoxdur, lakin hələ mənfəəti də yoxdur, yəni realizasiyadan alınan nəticə dəyişən xərclər ödənilməndən sonra dəqiqliklə daimi xərclərin ödənilməsinə çatır və mənfəət sıfıra bərabərdir. Zərərsizlik nöqtəsi aşağıdakı düsturla təyin edilir:

$$\text{Rentabellik həddi} = \frac{\text{daimi xərclər}}{\text{nisbi ifadədə dəyişən xərclər, ödənilmədən sonra qalan realizasiyadan mədaxil}} = \frac{\text{daimi xərclər}}{\text{dəyişən xərclər \%}} \quad 1\text{-}100\%$$

Dəyişən xərclər istehsalla əlaqədar xərclərdir (xammal, materiallar, fəhlələrin əmək haqqı xərcləri). Daimi xərclərə istehsalın təşkilinə və idarə edilməsinə (menecment), amortizasiyaya olan xərclərdir.

Beləliklə, maliyyə planlaşdırılması həyata keçirilərkə aşağıdakı vəzifələr yerinə yetirilir:

- müəssisənin gəlirlərinin artırılması ehtiyatlarının və onların səfərbər edilməsi üsullarının aşkar edilməsi;
- maliyyə ehtiyatlarından səmərəli istifadə edilməsi,
- müəssisənin investisiyasının planlaşdırılan dövrdə maksimal mənfəəti təmin edən ən səmərəli istiqamətlərin müəyyən edilməsi; müəssisənin istehsal planı göstəricilərinin maliyyə ehtiyatları ilə uzlaşdırılması;
- banklarla və digər kreditorlarla optimal maliyyə münasibətlərinin əsaslandırılması.

Maliyyə planlaşdırılmasının göstərilən sxemi perspektiv plan tərtib edilməsini nəzərdə tutur. Lakin müəssisənin cari fəaliyyəti üçün istənilən vaxt dövründə planlaşdırmanı və plan göstəricilərinin yerinə yetirilməsini təmin edən daxili sənədlər lazımdır, yəni maliyyə planlaşdırılması daimi və fasiləsiz-qarşıdakı dövr il,rüb, ay üçün həyata keçirilməlidir.

Maliyyə planının məcburi forması (Maliyyə planlaşdırılmasının özünün məcburiliyidir) normativ sənədlərdə nəzərdə tutulmamışdır. Ən məqsədəuyğunu məlumatların elə təşkilini nəzərdə tutur ki, burada gəlirlər və xərclər müxtəlif bölmələrdə qruplaşdırılır, məsələn:

Gəlirlər və vəsaitlərin mədaxili:

1. Məhsulun (işlərin, xidmətlərin) realizasiyadan alınan mənfəət.
2. Digər realizasiyadan (müəssisənin əsas fondlar obyektlərinin və digər əmlakının).
3. Realizasiyadan kənar gəlirlər.
4. Amortizasiya ayırmaları.
5. Digər müəssisələrdən vəsait daxil olması (mədaxili).
6. Dövlət maliyyə dəstəyinin (yardımının) vəsaitlərinin mədaxili.
7. Büdcədən kənar fondlardan mədaxillər.
8. Digər gəlirlər.

Xərclər və vəsatlərin ayrılması:

1. Vergilər və mənfəətdən ödənilən rüsumlar
2. Müəssisənin sərəncamında qalan mənfəətin bölüşdürülməsi.
3. Ayrılmış amortizasiya hesabına uzunmüddətli investisiyalar.
4. Digər mənbələr hesabına uzunmüddətli investisiyalar.
5. Digər xərclər.

Operativ (əməli) maliyyə planlaşdırılmasının təmin edilməsi üçün ən azı iki sənəd tərtib olunması tövsiyə edilir (ikinci məcburidir, lakin maliyyə planlaşdırılması qaydalarına görə deyil, kassa əməliyyatlarının və hesabat-kassa xidmətinin həyata keçirilməsi qaydasının tələblərinə uyğun olaraq):

- Ödəmə təqvimi;
- Kassa planı.

Müəssisədə qısa müddətli borc vəsaiti cəlb edilməsi tələbatı olan halda qısa müddətli kredit tələbatı hesablanması tərtib edilir.

Tədiyə təqvimi işlənib hazırlanan zaman operativ (əməli) planlaşdırılmasının məzmunu hesablamaların müəyyən konkret ardıcıllığından və həyata keçirilməsi müddətlərindən ibarətdir, bu da öz vaxtında büdcəyə, dövlət büdcədən kənar fondlarına tədiyələri ödəməyə, işçilərlə və kredit təsisatları ilə hesablaşmalar aparmağa imkan yaradır. Tədiyə təqvimi, bir qayda olaraq, bir ay üçün (çünki məhz həmin dövr işçilərlə və banklarla hesablaşmalar üçün əsasdır), mütləq daha qısa vaxtlara dekadalara (ongünlüklərə), həftələrə, iş günlərinə bölünməklə tərtib edilir. Tədiyə təqvimi müəssisənin həm nağd, həm də nağdsız formada bütün xərclərini və mədaxillərini əhatə edir.

Tədiyə təqvimi iki bölmə: xərclər və gəlirlər hissələri tərkibində tərtib etmək məsləhət görülür. Tədiyə təqviminin

bölmələrinin nümunəvi tərkibi:

I Hissə. Xərclər:

1. İşçilərin əmək haqqı və ona bərabər tutulan ödəmələr.
2. Vergilər.
3. Material-istehsal ehtiyatlarına görə mal göndərənlərin hesablarının ödənilməsi.
4. Podratçılara yerinə yetirilmiş işlərə görə hesabların ödənilməsi.
5. Lizinq və icarə ödəmələri.
6. Bank borclarının ödənilməsi.
7. İstiqrazların ödənilməsi.
8. Bank kreditlərindən istifadə edilməsinə görə faizlərin ödənilməsi.
9. Borc vəsaitlərin istifadə edilməsinə görə faizlərin ödənilməsi.
10. Təxirəsalınmaz ehtiyaclar.
11. Digər xərclər.

Xərclərin cəmi

II Hissə.Mədaxillər:

1. Məhsulun, işlərin və xidmətlərin realizasiyasından mədaxillər (daxil olmalar).
2. Təşkilatın əsas vəsaitlərinin və digər əmlakının realizasiyasından mədaxillər.
3. Realizasiyasından kənar gəlirlər.
4. Vaxtı keçmiş debitor borcunun daxil olması.
5. Qısamüddətli bank kreditləri.
6. Qısamüddətli istiqrazlar (borclar).
7. Kassada və hesablaşma hesabında vəsaitlərin qalığı.
8. Dövlət maliyyə dəstəyi vəsaitlərinin daxil olmaları.
9. Büdcədənkənar fondlardan daxil olmalar.
10. Digər mədaxillər (daxil olmalar).

Mədaxillərin cəmi

Mədaxillərin xərclərdən artıqlığı

Xərclərin mədaxillərdən artıqlığı

İdeal halda təqvimin hər iki hissəsi arasında nisbət elə olmalıdır ki, onların bərabərliyi təmin edilsin. Mədaxillər xərclərdən artıq olduğu halda vəsaitlərin artığı müəssisənin hesablaşma hesabında oturacaqdır, bu, bir tərəfdən müəssisənin maliyyə davamlılığını yüksəlməsi deməkdir, lakin digər tərəfdən, müvəqqəti sərbəst vəsaitlərdən səmərəli istifadə edilməsi üzrə əlavə tədbirlər işlənib hazırlanmasını tələb edir. Xərclərin mədaxillərdən artıq olması müəssisənin qarşıdakı xərclərin ödənilməsi üçün imkanlarının azalmasını sübut edir. Bu halda maliyyə planının yerinə yetirilməsinə nəzarət edən orqan ən prioritet (birinci dərəcəli) ödəmələrin müəyyən edilməsi üzrə tədbirlər görməlidir.

Kassa planı-müəssisənin nəğd pullarının dövriyyəsi planıdır. Kassa planından nəğd pul vəsaitlərinin daxil olma və xərclənmə müddətlərinə riayət edilməsinə nəzarət üçün istifadə olunur. O, rüb üçün tərtib edilir və müəssisənin hesabat-kassa xidmətində olduğu banka təqdim edilir.

Müəssisələrin maliyyə xidmətlərinin digər əsas funksiyası (vəzifəsi) nəzarət-təhlil işidir, o müəssisənin maliyyə davamlılığını və inkişaf perspektivlərinin müəyyən edilməsi məqsədilə onun-təsərrüfat fəaliyyətinin təhlil edilməsini nəzərdə tutur.

Maliyyə vəziyyətinin qiymətləndirilməsini ahşağıdakı istiqamətlər üzrə aparmaq tövsiyə edilir:

- müəssisənin fəaliyyətinin maliyyə nəticələrinin qiymətləndirilməsi, mənfəətin və zərərlərin təhlili müəssisənin gəlirlərinin və xərclərinin sturukturuna təsir edən amillərin öyrənilməsi;
- müəssisənin sərəncamında olan vəsaitlərin miqdarının qiymətləndirilməsi, mənfəətin bölüşdürülməsinin təhlili, özünün və cəlb edilmiş maliyyə ehtiyatlarının sturukturu və onlardan istifadə edilməsinin xarakteri;
- müəssisənin dövriyyə vəsaitinin mövcudluğunun (miqdarının) və ondan istifadə edilməsinin təhlili;
- debitor və kreditor boclarının təhlili.

Sadalanan istiqamətlər maliyyə təhlili edilərkən tədqiq edilən göstəricələrin bütün siyahısını tamamlamır.

Alınmış məlumatların meyllərinin aşkar edilməsi və qiymətləndiriilməsi üçün müvafiq əmsallar və onlardan istifadə edilməsi üzrə tövsiyələr işlənib hazırlanmış və müvəffəqiyyətlə tətbiq olunur. Maliyyə təhlili əmsalları aşağıdakı qaydada qruplaşdırılır:

a) ləğv edilməlik əmsalları;
b) davamlılıq əmsalları;
c) işgüzar fəallıq əmsalları;
d) mənfəətlilik əmsalları.

Həmin düsturların və tövsiyyələrin nəzərdən keçirilməsi əlahiddə danışıq mövzusudur və bu vəsaitin çərçivələrindən kənara çıxır.